# NƏ YAXŞI Kİ, XATİRƏLƏR VAR



*Ulduz QASIM*

*Əzizinəm, çiçək-çiçək,*
*Vətənim gözəl-göyçək,*
*Deyirəm doğru-gerçək*
*Yurduma qurban olum...*

Yadıma yenə Vətənimin ucsuz-bucaqsız torpaqları, bağları, çölləri, çəmənləri, sərin sulu bulaqları, dağları, dərələri düşdü. Xəyalım haraları dolanıb durmadı. "Əyri qar"a, "Sarı bulağ"a, "Şırşır"a,"Qotur"a qalxdım. Səhərsəhər döşlərdə, çəmənlərdə açan lalələr məni heyran qoydu. Adsız çiçəklər, açan minbir rəngli güllər gözlərimi oxşadı, könlümü sevindirdi. Ayaq basmağa qıya bilmədiyim cənnət çöllər mənə güc verdi. Bir anlıq otağım kəklikotunun, dağ yarpızının, yovşanın qoxusuyla doldu, məst elədi məni. Bu soyuq yerdə, qarlı, çovğunlu diyarda bahar gəldi otağıma. İsindim, könlüm, gözüm sevindi...

Sonra da Şuşam düşdü yadıma. Təbiətinin gözəlliyinə heyran olduğum qədim diyarım. Daş küçələrlə addımladım, sonra da Cıdır düzünə çıxıb Topxana meşəsinə baxdım. İsa bulağına endim. Suyundan içib Laçına üz tutdum. Laçın kimi baxan, Laçın qədər gözəl olan yerlərə. Sisli, çənli-dumanlı dağlara, dərələrə baxdım, elə uşaqlıqdakı kimi. Ürəyimdən nələr gəlib keçmədi...

Kəlbəcərin tayı-bərabəri olmayan gözəl təbiəti fikirlərimi qanadlandırdı. Bulaqlarının suyu, zirvələrdəki qarı yenidən gözümə işıq verdi. Gəncləşdim, ruhum təzələndi...

Sonra da xatirələrimin qızıl fondunda qoruyub saxladığım Cəbrayılımın əfsanəvi yerlərində xəyala daldım. Fikirləşdim ki, nə yaxşı xatirələr var. Nə yaxşı ki, bu gözəllikləri görmüşəm, doyunca gəzmişəm bu tayı-bərabəri olmayan yerləri. Nə yaxşı ki, bu gözəlliklərin şəklini qəlbimə yazmışam, əbədi həkk etmişəm. Nə yaxşı ki, bu gözəlliklər mənimdi, nə yaxşı ki, Azərbaycan mənim Vətənimdi...

Sonra da insanların xatırladım. Yaşımdan əvvəlkiləri, yaşadığım vaxtlarda görüşüb söhbət etdiklərimi canlandırdım xəyalımda. Saysız-hesabsız insanlar gəlib-keçdi gözümün önündən. Nədənsə ən çox qadınlarımız yadıma düşdü. Türkün, Azərbaycanın əvəzsiz qadınları. Fədakar, qeyrətdə tayı-bərabəri olmayan, mərhəmətli, ailəsi, övladları üçün, torpağı üçün canını verməyə hazır olan qadınlarını, analarımızı, nənələrimizi xatırladım. Tarixi vərəqlədim. Hər daim həyat yoldaşının yanında olan, arxasında duran Türk qadınlarının keçdiyi həyat yollarını nəzərdən keçirdim. Nə savadda, nə mübarizlikdə, nə də başqa xarakterlərdə onlara bərabər tutacağım heç kimi tapmadım. Otuz il ərzində işimlə bağlı demək olar ki, dünyanın bütün ölkələrinin qadınlarıyla qarşılaşdım. Dinindən, dilindən asılı olmayaraq onların xarakteriylə tanış oldum və bu fikirə gəldim...

Süreyya xatun, (bəzi mənbələrdə Sara xatun kimi də keçir), Ağabəyim ağa, Xurşudbanu Natavan, Məhsəti Gəncəvi, Aşıq Pəri və onlarca, yüzlərcə xanımlarımız. Sevgisində Leyli, kimi, Şirin kimi sədaqətli qadınlarımızı xatırladım...

Həməşə onları kölgədə buraxmağa çalışsalar da, biz onları tanıdıq, az-çox həyatlarına nəzər sala bildik.

Qadınlardan söz düşəndə rəhmətlik nənələrimi xatırladım. Bənövşə nənəmi. Həmişə məni dünyada ən çox heyrətləndirən sirli qadını. Mavi gözlü, ağ bənizli, incə və gözəl Bənövşə nənəmi. Bənövşə qədər təravətli, boynu bükük qadını...

Bizim nəsildən olan Bənöşə xanım babam Şeyx Hacı Qasım Qafqazinin həyat yoldaşı olub.

Əslində atam Hacı Fəzlinin analığı olub. Biz onu həmişə doğma bilsək də, həqiqət budu. Lakin atamın da, bibilərimin də əslində öz doğma analarından çox zəhmətini çəkən, böyüdən də elə Bənövşə nənəm olub.

Babam əmisi qısı Bənövşə ilə evləndikdən sonra uzun illər övladı olmayıb. Bənövşə nənəm boşanmaq istəyib. Babama bunu deyəndə o etiraz edib. Qismət deyilmiş, deyib. Lakin qadın razılaşmayıb. Mən əmim oğlunun sonsuz olmağına heç vaxt razı olmaram, bu sənin haqqındı, deyib. Ancaq Şeyx babamız razılaşmayıb. Babam Bağdada gedəndən sonra Bənövşə nənəm ona bir xanım gətirir. Kəndə qayıdan babam evdə qadını görəndə (yəni Mədinə nənəmi) təəccüb edib. Soruşanda Bənövşə nənəm deyib ki, səni evləndirdim. Babam razılaşmaq istəməyəndə qadın, deməli, məni sevmirsən, deyib. Mən istəyirəm əmim oğlunun övladları olsun. Onları mən özüm böyüdəcəm. Bu şərtlə Şeyx babam razılaşıb onunla. Və Mədinə nənəmin üç övladı olur. Atam və iki bibim. Doğrudan da onları bərabər böyüdürlər.Bacı kimi bir-birilərinə hörmət ediblər, bir-birini heç zaman könlünə dəyməyiblər...

Mədinə nənəm atamın səkkiz yaşı olanda dünyasını dəyişir. Onun ölümündən sonra da Bənövşə nənəm evi tərk etmir, uşaqları böyüdür. Biz də həmişə onu doğma nənəm kimi qəbul etmişik və çox sevmişik...

Bilirsiniz, bu hadisəni biləndə çox düşündüm, təəccübləndim. Bənövşə qədər zərif o qadındakı elə gözəl, böyük ürək məni heyran qoydu. Yadıma hz. İbrahimin həyat yoldaşı Sara xatun düşdü. Onun övladı olmayanda İbrahim peyğəmbərə Həcərlə evlənməyi təklif edir. Lakin Həcərin oğlu İsmayil dünyaya gələndə uşağın səsinə dözə bilmir. Onu qısqanır. Və İbrahim peyğəmbərə Həcəri və oğlunu sürgün etdirdi. Onları susuz və insansız səhraya atdırdıqdan sonra sakitləşir. Ancaq Bənövşə nənəm həm Şeyxi özü evləndirir, həm də övladlarına sahib çıxır, onları öz doğma övladları kimi sevir və böyüdür. Bu böyük ürək ancaq bir Türk, bir Azərbaycan qadınına məxsus ola bilərdi...

Bir də Həcər ruhlu, Nigar təbli, cəsur Nöyzə nənəmi xatırlayıram. Ətraf kəndlərdə onu tanımayan yoxdu. Özüm bunun şahidi olmuşam...

O, qeyrətli, namuslu, qoçaq, əsil Azərbaycan qadınıydı. Barəsində çox hadisələr danışılırdı kəndimizdə. Əmir babam (anamın atası) rəhmətə ketdikdən sonra üç qızla tək qalan nənəmi qaynatası bir zamanlar qapılarında işləyən Abdullaya ərə verir. Gözəlgöyçək gəlindi, tək qalmasın deyirlər. Kənd yeridi, söz-söhbət olmasın. Ancaq, əslində nənəm özü bütün işləri görürdü...

Müharibə zamanı (1941-1945) kəndin demək olar bütün kişilərini döyüşə aparırlar. Həmin illərdə pambıqçılıqla məşğul olan kənddə Nöyzə nənən manqa başçısı olur. Demək olar ki, o həmişə lider idi. Kənddə onun kimi ikinci belə güclü, bacarıqlı birini nə gördüm, nə də tanıdım, nə də eşitdim...

Hə, həmin müharibə vaxtı kənddə qalan kişilərdən biri kolxoz sədri olur. Və qeyrətsiz bəzi zəif qadınlardan istifadə edirmiş. Nənəm də bunu eşidib. Elə həmin günlərin birində bambıq tarlasına gəlir həmin sədr. İşlərə baxmağa. Nənəmi görəndə deyir:

- Nöyzə, axşam sizə gələcəm.
- Xeyir ola, ay sədir?
- Gəlib bir çayını içərəm, nə deyirsən?

Bundan acığı gələn və eşitdiklərindən qəzəblənən nənəm sədri atdan alıb qoyur yerə. Əlindəki alaq təmizləyəni dirəyir onun boğazına və deyir:

- Sənin başını kəsərəm, sonra da gedib oturaram türmədə. Qeyrətsiz oğlu, qeyrətsiz! Sən bu qadınların namuslarını qorumaqdansa, onları pis yola çəkirsən?

Sahədəki qadınlar güclə kolxoz sədrini nənəmin əlindən alırlar. O hadisədən sonra sədri bir də tarlada görən olmur.

İndiki qadınlara nümunə olacaq çox gözəl xarakterlər vardı nənələrimizdə...

Müharibə zamanı Nöyzə nənəmin Fizulidə yaşayan qardaşı İslam rəhmətə gedir. Atadan və anadan yetim qalan iki uşağa sahib çıxan olmur. Hətta, kəndimizdəki qardaşı da onları yanına gətirməyə getmir. Rəhmətlik nənəm at arabasıyla gedib uşaqları gətirir. Anam danışırdı ki, bizim ixtiyarımız çatmazdı onun birinə gözün üstə qaşın var deyək. Qardaşımın yadigarıdılar, əzizdilər, deyərdi. Sonra Nübar (qardaşı qızı) qızılcadan rəhmətə gedir. Ancaq oğlanı böyüdüb, evləndirir nənəm.

Kəndin xeyir işinin, necə deyərlər toyunun, yasının yaraşığıydı nənəm. Toy məclislərində bütün yemək işi, ağbirçəkliyi ona baxırdı. Səliqəsinə-səhmanına mahalda tay ola bilməzdi. Yaslarda dediyi bayatılar, ağılar insanı dilə gətirirdi. Və həmişə də fikirləşirəm ki, nənəm bir o qədər bayatını, ağları necə yadında saxlayırdı...

Hətta, kəndə rayon mərkəzindən bir qonaq gələndə layiqli süfrə açmağa, qonaq qarşılamağa nənəmi çağırırdılar. Gözəl dil qabliyyəti, danışıq tərzi vardı. Sanki qırx müəllimdən dərs almışdı o qadın. Onun danışıqlarının çoxu yadımdadı hələ də. Hər zaman mübahisələrə qarşı olardı, bir söz-söhbət olanda onu sakitcə həll edərdi. Ədalətsizliyi heç sevməzdi. Gözünün işığı olsa belə hər işi ədalətlə yoluna qoyardı...

Rəhmətlik Yusif babam (atamın əmisi, biz ona "baba" deyərdik) nənəmdən söz düşəndə bizə deyərdi ki, mən elə bir qeyrətli, namuslu, bacarıqlı qadın görmədim. Düzlüyü sevən, hər insanın yerini biləndi nənəniz. Siz də ona bənzəyin...

Qonşuluqda yaşayan rəhmətlik Nazı arvad da belə deyirdi. Hətta Nazı nənə deyirdi ki, əri rəhmətə gedəndən sonra yatağının altına balta qoyurdu Nöyzə. Deyir namərd olar, pis fikirli insan olar evimə gələr. Ehtiyatlı olmaq lazımdı.

Rəhmətlik nənəm boylu-buxunluydu. Gözəldi, ağ sifətli qara qaşlı, iri gözlüydü. Həmişə də çox səlqəli və yaraşıqlı geyinərdi. Ona baxanda elə bilirdim nənəmin tayı-bərabəri yoxdu. Ətəkləri, üstən geyindiyi pencəyi həmişə təzə və təmiz olardı. Örtdüyü şalı, şamaxısı da ona yaraşıq verərdi.

Kəndimizə yeni bir kolxoz sədri gəlmişdi rayondan. Məhəmməd adında. Pambıq yığılan zamanı hamını tarlalara tökərdilər. Bacardı-bacarmadı. Bir gün həmin sədir içkili nənəmin qapısına gedir. Qadın ona xoşgəldin edir. Məhəmməd nənəmə deyir:

- Sən niyə evdə oturmusan, pambığa getmirsən?

Nənəm ona hörmətsizlik etmək istəməyib.

- Ay bala, ay sədir, mənim pambığa gedən zamanım çoxdan keçib. Qoca qadınam. Artıq nəvələrim işləyir mənim. Nə danışırsan, çıx get burdan, danışığını bil.

Kolxoz sədri dediyini deyib durur. Nənəm görür bunu yaxşılıqla göndərə bilməyəcək. Ağacı əlinə alıb, kolxoz sədrini vurmağa başlayır. İndi get, deyir, içki içib, qapılara düşmə bir də. Sən kolxozun başçısısan, rəhbərisən. Nümunə olmalısan kiçiyə-böyüyə. Bura sənə başqa yer deyil. Özünü doğru-düzgün aparmağı bacar. Sən belə içkili necə kolxoz idarə edirsən. Bir də səni belə görsəm, katibə xəbər göndərəcəm. Millətə hörmətlə yanaşmaq lazımdı...

Bir dəfə də kəndimizə gənc mühasib gəlir. Təcrübəsizlikdən, görünür, hesabları doğru-düzgün həll edə bilmir. Birinci katib gəlir kolxozun iclasına. Danışdıqdan sonra Vəli kişini, yəni gənc mühasibi tutmaq qərarı verirlər. Nöyzə nənəm söz istəyir və deyir:

- Yoldaş katib, bu hələ gəncdi, təcrübəsizdi. Ona imkan verməlisiniz. Hər səhv edən gənci içəri atsanız, mahalda mütəxəsis qalmaz.

Nənəmin sözündən sonra Vəli kişini bağışlayırlar və ona işləmək üçün bir şans verirlər. Nənələrimin barəsində o qədər söz demək olar ki...

Bir də düşünürəm ki, başqalarının arxasınca düşmək, onlardan nəsə nümunə götürmək lazım deyil. Bizim əvəzsiz qadınlarımız var. Onlara oxşamaq, onlardan nümunə götürmək lazımdı...

***2026***